

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 185 (23.827)

7 oktyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edib.

Səfiri salamlayan Prezident İlham Əliyev deyib ki, Avropa İttifaqı ilə uzunmüddətli əməkdaşlıq çox səmərəli və uğurlu əməkdaşlıqdır. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalanması çox mühüm addım idi.

Dövlətimizin başçısı qeyd edib ki, böyük layihə olan Cənub Qaz Dəhlizinin tamamlanması ilə bağlı planlar bununla məhdudlaşmır. Azərbaycan Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilər.

Səfir Petr Mixalko qarşılıqlı səmərəli əməkdaşlığın nəticə verməsi üçün çox fəal şəkildə işləməyə hazır olduğunu deyib.

## M.İ.Adnayevanın Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mahirə İsmayıl qızı Adnayeva Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 oktyabr 2021-ci il*

## Hərtərəfli inkişaf nəqliyyat sahəsinin də dinamikasını artırır



Son illərdə muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınıb, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilib, yeni körpülər tikilib, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı daha da yaxşılaşdırılıb.

Avtomobil yollarının yenidən qurulması muxtar respublikada iqtisadiyyatın inkişafına töhfə verməklə yanaşı, həm də insanların rahatlığına xidmət edir. Ölkə başçısı cənab İlham Əliyevin Naxçıvana səfəri zamanı dediyi kimi: ***"Yollar çox keyfiyyətlə tikilir, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq, keyfiyyət də yerindədir".***

Ötən dövrdə muxtar respublikanın əsas magistral yollarından olan, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları və 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu yenidən qurularaq istifadəyə verilib.

Babək rayonunda uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək şəhəri-Nehrəm qəsəbə-Araz kənd dairəvi avtomobil yolu, Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu və digər avtomobil yolları yenidən qurulmuşdur. Ümumilikdə, 1 yanvar 2011-ci ildən 2020-ci ilin sonuna muxtar respublikada 863 kilometr uzunluğunda avtomobil yolları yenilənmişdir.

Naxçıvan şəhərində sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün məqsədyönlü tədbirlər həyata keçirilib, əhalinin marşrutlardan səmərəli istifadəsi üçün hərtərəfli şərait yaradılıb. Bu sahənin inkişafı ilə əlaqədar həyata keçirilən tədbirlər, istifadəyə verilən yeni avtobus və mikroavtobuslar yaranan sərnişin sıxlığının aradan qaldırılmasında mühüm rol oynayır. Sərnişinlərin rahatlığını təmin etmək üçün isə Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal kompleksləri fəaliyyət göstərirlər.

Muxtar respublikada hava nəqliyyatının inkişafı istiqamətində ardıcıl tədbirlər aparılmış, yeni inzibati bina inşa olunmuşdur. Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, təyyarə uçuşlarının təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə Şərq və Qərb terminalları istifadəyə verilmiş, Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-enmə zolağı yenidən qurulmuşdur.

Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılmışdır.

Beynəlxalq Hava Limanında yüklərin təhlükəsiz daşınması və qəbulu məqsədilə karqo terminalı yenidən qurulmuş, maşın və mexanizmlər üçün qaraj kompleksi yaradılmışdır.

Rayonlarda əhalinin bilet təminatını ödəmək üçün Şərur, Ordubad və Şahbuz şəhərlərində aviakassa binaları istifadəyə verilmişdir.

Muxtar respublikada əhaliyə göstərilən taksi xidmətinin səviyyəsinin yüksəldilməsi, eləcə də operativ və keyfiyyətli fəaliyyətin təmin edilməsi məqsədilə innovasiyaya əsaslanan "Elektron taksi xidməti" yaradılıb. Şəhərdaxili və beynəlxalq marşrutda fəaliyyət göstərən avtomobillərin iş qrafikinə və təhlükəsizliyinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyası olan "Naxtel" 4G GPS monitorinq izləmə sistemi quraşdırılıb. Eyni zamanda Türkiyə Respublikası və Naxçıvan-Bakı-Naxçıvan istiqamətində avtobus marşrutlarının fəaliyyətləri davam etdirilir.

Cari ilin yanvar-avqust aylarında Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının və Şərur şəhərində Avtovağzal binasının tikintisi davam etdirilir.

Muxtar respublikada nəqliyyatın digər bir sahəsi olan dəmir yolunun inkişafı da diqqətdə saxlanılmış, infrastruktur yenidən qurulmuşdur. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında rabitə qovşağı anbarının əsaslı təmiri başa çatdırılmış, polis şöbəsi üçün inzibati binanın tikintisi, nəzarət-ölçü cihazları sexinin əsaslı təmiri, Şərur rayonunda Elektrik Təmas Şəbəkəsi binasının, Dövriyyə Deposu binasının və təmir sexinin yenidən qurulması davam etdirilir.

Culfa rayonunda İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının və Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması davam etdirilir.

2021-ci ilin yanvar-avqust aylarında muxtar respublikada nəqliyyat sektorunda 10 milyon 699 min ton yük, 69 milyon 922 min 500 nəfər sərnişin daşınmışdır. 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 37,3 faiz, sərnişin daşınması isə 33,7 faiz artmışdır.

***Nəqliyyat sektorunda yük və sərnişin daşınması***




Yük və sərnişin daşınmasından, bütövlükdə, 36 milyon 71 min 100 manat gəlir əldə olunmuşdur ki, bu da 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 42,2 faiz çoxdur.

Muxtar respublikada müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması məqsədilə 2021-ci ilin yanvar-avqust aylarında bu sahəyə 38 milyon 512 min 200 manat vəsait yönəldilmişdir.

Muxtar respublikada yol infrastrukturunun yaradılmasının əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri demişdir: ***"Yolların yenidən qurulması abadlığın əsasını təşkil edir".*** Bu istiqamətdə cari ilin ötən dövründə Culfa-Ordubad magistral avtomobil yolunun, Naxçıvan şəhərində avtomobil yolunun, Şərur şəhərinə giriş və daxili avtomobil yollarının, Ordubad rayonunun Yuxarı Əndəmic-Nüsnüs, Ordubad şəhəri-Aşağı Əndəmic və Şərur rayonunun Şəhriyar kənd avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması başa çatdırılmışdır.

Ordubad rayonunun Nüsnüs kəndində bir körpünün tikintisi, bir körpünün təmiri başa çatdırılmışdır.

Ümumilikdə, cari ilin yanvar-avqust aylarında muxtar respublikada 88,2 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur.

Hazırda Naxçıvan şəhərində iki avtomobil yolunun, Şərur rayonunda Çərçiboğan, Dərvişlər, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Sədərək rayonunda Dəmirçi, Şərur rayonunda Maxta-Sədərək rayonunda Dəmirçi, Babək rayonunda Göynük, Araz, Ordubad rayonunda Vənənd-Pəzməri kənd avtomobil yollarının, Culfa şəhərində daxili avtomobil yolunun yenidən qurulması davam etdirilmişdir.

Keyfiyyətli, dayanıqlı və genişzolaqlı yolların çəkilməsi muxtar respublikanın sosial-iqtisadi inkişafını, tranzit və turizm imkanlarını daha da yaxşılaşdıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Daşınmaz əmlakın qeydiyyatı və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində vəzifələr uğurla icra edilib

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikasında torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, eləcə də daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi cari ilin sentyabr ayında da diqqətdə saxlanılıb, xidmətin fəaliyyət sahələri üzrə işlər uğurla icra edilib.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Ordubad rayonu üzrə 161,78 hektar meyvə bağı, 50,82 hektar meşə zolağı plana alınaraq xəritələşdirilib.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar Kəngərli rayon inzibati ərazi vahidinin sərhədləri daxilində əkin dövriyyəsindən kənarda qalmış torpaqların əhatə etdiyi ərazilərin xəritələri hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

Ötən ay muxtar respublikada kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması məqsədilə Şahbuz rayonunun Külüs, ailə təsərrüfatlarının inkişafı ilə bağlı Culfa rayonunun Ərəzin, muxtar respublikanın iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpası və tətbiq olunması, əkin atlaslarına uyğun olaraq meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə Babək rayonunun Yuxarı Uzunoba kəndində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin, o cümlədən ailə təsərrüfatı nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilib.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar Şərur rayonunun İbadulla, Kosacan, Kəngərli rayonunun Çalxanqala kəndlərinin ərazilərində monitorinqlər başa çatdırılıb, müəyyən edilmiş qanun pozuntuları aradan qaldırılıb.

Ötən ay ərzində 709 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 534 texniki sənəd hazırlanıb, yeni yaranmış 38 daşınmaz əmlak obyektinə ünvan verilib, 117 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılıb, 2 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 9 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 3 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

Yeni nəşrlər

# "Araz-Türk Cümhuriyyəti" kitabı Naxçıvanşünaslığa dəyərli töhfədir

***Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı işlər sırasında elmə, o cümlədən tarix və mədəniyyətimizin öyrənilməsinə diqqət və qayğı xüsusi yer tutur. Buna görə də elmi-tədqiqat işləri genişlənir, aparılan tədqiqatların səmərəliliyi artır, nəticədə, bölgə tarixinin müxtəlif problemləri ilə əlaqədar çoxlu əsərlər yazılır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi yaradıldıqdan sonra bu iş daha sistemli şəkil almış, müxtəlif istiqamətlərdə elmi-tədqiqat işləri aparılmağa başlanılmışdır. Bu işlərin nəticələri nəşr olunan kitab və monoqrafiyalarda, məqalələrdə öz əksini tapır. Muxtar respublikada yazılan kitab və monoqrafiyaların nəşri məsələsi də yüksək səviyyədə həll olunmuşdur. Hazırda muxtar respublikada yaradılan münbit şərait, xüsusilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi kimi möhtəşəm nəşriyyatın fəaliyyəti kitab nəşrinin yüksək səviyyədə həyata keçirilməsinə imkan verir. Bu günlərdə Azərbaycanşünaslığın tərkib hissəsi kimi Naxçıvanşünaslıq elmi xəzinəsi yeni bir sanballı əsər ilə zənginləşmişdir. Akademik İsmayıl Hacıyevin "Araz-Türk Cümhuriyyəti" kitabı "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunaraq elmi dövriyyəyə daxil edilmişdir.***




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında" 24 sentyabr 2019-cu il tarixli Sərəncamına əsasən nəşr edilən və Ali Məclis Sədrinin qeyd olunan Sərəncamı ilə açılan əsər giriş, 3 fəsil, 11 paraqraf, nəticə, əsərin yazılmasında istifadə edilmiş mənbə və ədəbiyyatlar, şəxs və coğrafi adlar göstəricisi və əlavələrdən ibarətdir. Akademik İsmayıl Hacıyev əsərdə Araz-Türk Cümhuriyyətinin yaranması ərəfəsində Naxçıvan diyarında hərbi-siyasi vəziyyətdən bəhs edir, çar Rusiyasının I Dünya müharibəsində məğlubiyyətindən sonra imperiyada və onun ucqarlarında, o cümlədən Cənubi Qafqazda baş verən hadisələrdən, yaranmış mürəkkəb vəziyyətdən bəhs edir. Akademik haqlı olaraq bu nəticəyə gəlir ki, ermənilər özləri üçün yaranmış əlverişli vəziyyətdən istifadə edərək Azərbaycana, həmçinin onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvana ərazi iddialarına başlamış, öz çirkin niyyətlərini həyata keçirmək üçün ərazimizə silahlı müdaxilələr təşkil etmiş, günahsız insanları qətlə yetirmiş, yaşayış məskənlərini viranəyə çevirmişlər. Bölgədə ağır olan vəziyyəti Azərbaycan xalqının qəddar düşməni Andronik Ozanyanın quldur dəstələrinin əraziyə hücumları daha da gərginləşdirmişdi. Alimin kitaba daxil etdiyi Stepan Şaumyanla Andronik Ozanyanın bir-birinə göndərdiyi teleqramlar Azərbaycan xalqının bu iki qəddar düşməninin iç üzünü açmaq, onların bir-biri ilə əlaqəli fəaliyyət göstərmələrini ifşa etmək baxımından çox dəyərli sənədlərdir. Vəziyyətin son dərəcə ağır olduğunu görən qabaqcıl insanlar Naxçıvanı erməni təcavüzündən, əhalini qırğından qorumaq məqsədilə kömək üçün Osmanlı dövlətinə müraciət etmişdi. Naxçıvana gələn Osmanlı dövlətinin hərbi birləşmələri yerli əhalinin köməyi ilə erməni quldur dəstələrinin törətdiyi vəhşiliklərə son qoymuş və Naxçıvanı erməni təcavüzündən qorumuşdu.

Ancaq Osmanlı dövləti Birinci Dünya müharibəsində məğlubiyyətdən sonra 30 oktyabr 1918-ci ildə Mudros müqaviləsini imzalamağa məcbur oldu. Müqavilənin şərtlərinə əsasən Osmanlı ordusu bütün Azərbaycanda olduğu kimi, Naxçıvanı da tərk etdi. Naxçıvanı tərk edərkən Türk ordusunun komandanı Kazım Qarabəkir Paşa demişdi ki, "Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmışsınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmışsınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır". Belə bir cümhuriyyət Araz-Türk Cümhuriyyəti oldu.

Akademik İsmayıl Hacıyev yazır ki, Araz-Türk Cümhuriyyətinin yaradılmasının əsas təşəbbüskarı naxçıvanlılar və şərurlular olmuş, ordubadlılar isə bu təşəbbüsü müdafiə etmişlər. Beləliklə, 1918-ci ilin noyabr ayında Araz-Türk Cümhuriyyəti yaradıldı. Bu dövlətin hökumətinin başçısı Əmir bəy Nərimanbəyov oldu. Müəllif əsərdə Araz-Türk Cümhuriyyətinin yaranması, hakimiyyət strukturlarının təşkili, Cümhuriyyətin ərazisi (8696 kvadratkilometr), əhalisi (təxminən, 1 milyon nəfər), mərkəzi, hərbi qüvvələrin yaradılması, onun bölgənin ərazi bütövlüyü uğrunda erməni daşnaklarına qarşı mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyəti və Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti ilə əlaqələri haqqında təhlillər aparmış, obyektiv nəticələrə gəlmişdir. Həmçinin müəllif kitabda Araz-Türk Cümhuriyyətinin süqutu və bundan sonra bölgədə yaranmış vəziyyəti də təhlil etmişdir.

Akademik İsmayıl Hacıyev haqlı olaraq belə bir nəticəyə gəlmişdir ki, qısa müddət yaşamasına baxmayaraq, Araz-Türk Cümhuriyyəti qarşıya qoyulan məqsədə nail oldu, bölgəni erməni təcavüzündən qorudu. Şimali Azərbaycan üçün çox gərgin bir dövrdə bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsində mühüm rol oynadı, ən başlıcası isə bölgənin ermənilərin əlinə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etdi. Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"1918-ci ilin noyabrında Naxçıvanda yaradılmış Araz-Türk Cümhuriyyəti Naxçıvanın Ermənistan daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını aldı və tarixi Azərbaycan torpaqlarını qoruyub saxladı".***

Akademik İsmayıl Hacıyev əsərdə zəngin arxiv və ədəbiyyat materialları əsasında Araz-Türk Cümhuriyyətinin tarixi ilə əlaqədar bir sıra mübahisəli məsələlərə aydınlıq gətirmişdir. İndiyədək Araz-Türk Cümhuriyyətinə həsr olunmuş kitab və məqalələrdə Araz-Türk Cümhuriyyəti hökumətinin başçısı Əmir bəyin soyadı Vəzirov, Əkbərzadə, Zamanbəyzadə və Nərimanbəyov kimi qeyd olunmuşdur. Müəllif bu soyadları təhlil edərək Əmir bəyin soyadının Nərimanbəyov olması qənaətinə gəlmişdir. Müəllif həm də əsərdə Toğrul və Vidadi Nərimanbəyov kimi görkəmli şəxsiyyətlərin Əmir bəy Nərimanbəyovun nəvələri olması haqqında məlumat vermişdir.

Araz-Türk Cümhuriyyətinin paytaxtı məsələsi də tarixşünaslığımızda mübahisəli problemlərdən biridir. Onun paytaxtı tarixçilər tərəfindən tədqiqat əsərlərində Qars, İqdır, Qəmərli və Naxçıvan kimi qeyd olunmuşdur. Arxiv materiallarını və tədqiqatçıların fikirlərini təhlil edərək tarixi faktları və məntiqi mülahizələri, xüsusilə Naxçıvan şəhərinin erməni hücumlarından bir qədər uzaqda yerləşməsini, bu Cümhuriyyətin yaradılmasının təşəbbüskarının naxçıvanlılar və şərurlular olmasını, hökumətin qərargahının Naxçıvanda yerləşməsini, belə bir Cümhuriyyətin yaradılmasının Kazım Qarabəkir Paşanın iştirakı ilə Naxçıvanda müzakirə olunmasını və sair əsas götürərək müəllif Araz-Türk Cümhuriyyətinin mərkəzinin Naxçıvan şəhəri olduğu qənaətinə gəlmişdir.

Həmçinin akademik İsmayıl Hacıyev Cümhuriyyətin yaranması və süqutu məsələsini də təhlil edərək müvafiq nəticələrə gəlmişdir. Məlumdur ki, tarixşünaslığımızda Araz-Türk Cümhuriyyətinin 1918-ci ilin oktyabrında, noyabrın 3-də, noyabrın 18-də və sair vaxtlarda yaranması fikri vardır. Müəllif bütün bu fikirləri nəzərdən keçirmiş və dövlətin 18 noyabr 1918-ci ildə yaranması fikrini əsaslandırmışdır. Həmçinin Cümhuriyyətin 30 noyabr 1918-ci ildə, 1919-cu ilin iyunun sonunda süqut etməsi fikirləri tarixşünaslığımızda özünə yer almışdır. Akademik İsmayıl Hacıyev bu fikirləri təhlil süzgəcindən keçirmiş, belə bir nəticəyə gəlmişdir ki, Araz-Türk Cümhuriyyəti 1919-cu ilin əvvəlində, ingilislərin Naxçıvana gəlməsi ilə süqut etmiş, tarix səhnəsindən çıxmışdır.

Ümumiyyətlə, əsər akademik İsmayıl Hacıyevin elmi dövriyyəyə daxil etdiyi yeni faktlarla çox zəngindir. Əsərin əhəmiyyətini artıran cəhətlərdən biri də yeri gəldikcə Cümhuriyyət rəhbərlərinin, hökumət üzvlərinin, həmin dövrdə Naxçıvanın ictimai-siyasi həyatında fəal rol oynayan şəxsiyyətlərin (Cəfərqulu xan Naxçıvanski, Kərim xan İrəvanski, Rəhim xan Naxçıvanski, Mir Hidayət bəy Seyidov, Əmir bəy Nərimanbəyov, İbrahim bəy Cahangiroğlu, Məhəmməd xan Təkinski, III Kalbalı xan Naxçıvanski, Bəhram xan Naxçıvanski, Əli Səbri Qasımov və sair) qısa tərcümeyi-hallarının verilməsi, əsərə şəxsi və coğrafi adların göstəricisinin daxil edilməsidir. Belə ki, əsəri oxuyan hər bir kəs Araz-Türk Cümhuriyyətinin yaradılmasında əməyi və fəaliyyətində rolu olan həmin şəxsiyyətlər haqqında məlumat alır, şəxsi və coğrafi adlar göstəricilərinin köməyi ilə istədiyi, maraqlandığı hər hansı bir məsələni asanlıqla tapa bilir. Həmçinin əsərə daxil edilən əlavələr, o cümlədən arxiv materiallarının surəti, xəritələr, Cümhuriyyət rəhbərlərinin fotoşəkilləri və sair əsərin dəyərini xeyli artırır.

Fikrimizcə, "Araz-Türk Cümhuriyyəti" kitabı artıq uzun müddətdir ki, Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixində yeri və rolu məsələsi ilə məşğul olan və bu sahədə çox sanballı əsərlərə imza atan akademik İsmayıl Hacıyevin bu sahədə növbəti uğurudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin tədqiq edilməsi haqqında" 2019-cu il 24 sentyabr tarixli Sərəncamının preambula hissəsində qeyd olunduğu kimi, Araz-Türk Cümhuriyyətinin müstəqillik tarixindəki müstəsna xidmətlərini və siyasi əhəmiyyətini nəzərə alaraq imzalanan Sərəncama əsasən hazırlanan bu əsər Naxçıvanşünaslıq elmi xəzinəsinə çox dəyərli töhfədir.

*İnanırıq ki, akademik İsmayıl Hacıyev gələcəkdə də araşdırılması tariximiz üçün çox aktual və vacib olan Azərbaycan dövlətçiliyi tarixində Naxçıvan mövzusunu daha dərindən və ətraflı tədqiq edəcək, Naxçıvan ərazisində yaranan dövlətlər (Naxçıvanşahlıq, Azərbaycan Atabəyləri dövləti, Naxçıvan xanlığı, Naxçıvan adını özündə əks etdirən inzibati-ərazi vahidləri, o cümlədən Naxçıvan tüməni, Naxçıvan sancağı və sair), eyni zamanda Naxçıvanın daxil olduğu dövlətlərin tərkibində oynadığı rol və tutduğu mövqe ilə əlaqədar ərsəyə gətirdiyi yeni əsərləri ilə oxucuları sevindirəcəkdir.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü***

# Muxtar respublikada əmək pensiyalarının maliyyələşdirilməsi yekunlaşmışdır

Muxtar respublikada həyata keçirilən iqtisadi və struktur islahatları əhalinin sosial müdafiəsi sahəsində uğurlu nəticələrin əldə olunmasını təmin etmişdir. İqtisadi inkişaf modelinin ən mühüm uğuru iqtisadi sahədə qazanılan gəlirlərin, ilk növbədə, əhalinin rifah halının yüksəldilməsinə, vətəndaş firavanlığının təminatına və insan kapitalının inkişafına yönəldilməsidir. Həyata keçirilən islahatlarla əhalinin, həmçinin əmək pensiyaçılarının rahatlığının təmin olunması, onların maddi təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə diqqət və qayğısı nəticəsində bütün növ əmək pensiyalarının və müavinətlərin hər ay vaxtından əvvəl maliyyələşdirilməsi təmin olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu sahədə üzərinə düşən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Bunun nəticəsidir ki, muxtar respublika üzrə oktyabr ayında əmək pensiyalarının maliyyələşdirilməsi vaxtında başa çatdırılmışdır. Əmək pensiyalarının ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə pensiyaçılara çatdırılmışdır. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi üçün hazırda müvafiq işlər görülür.

Qeyd edək ki, pensiya təminatında əsaslı dəyişikliklərin həyata keçirilməsi tədbirləri çərçivəsində pensiyaların operativ şəkildə pensiyaçılara çatdırılması xüsusi əhəmiyyətə malikdir. Bu sahədə muxtar respublikada pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi, həmçinin yaşayış yerlərində poçt bölmələri vasitəsilə çatdırılması əmək pensiyaçılarına göstərilən xidmətin yüksəldilməsi sahəsində atılmış mühüm addımdır. Bu istiqamətdə görülmüş tədbirlərin nəticəsidir ki, pensiyalarını poçt bölmələri vasitəsilə almaq istəyən pensiyaçıların sayı gündən-günə artmaqdadır.

Fond bundan sonra da əmək pensiyaçılarının sosial rifahının yüksəldilməsi üzrə müəyyən olunmuş işlərin icrası sahəsində öz üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışacaq və bunun üçün müvafiq tədbirlər həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# İmtahanların vaxtında və şəffaf keçirilməsi diqqətdə saxlanılıb



Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən müxtəlif istiqamətlər üzrə imtahanların keçirilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət sentyabr ayı ərzində də davam etdirilib.

1-15 sentyabr tarixlərində dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqənin müsahibə mərhələsi keçirilib. Müsahibəyə hazırlıq məqsədilə avqustun 27-də Dövlət İmtahan Mərkəzində 13 müstəqil ekspert və 12 dövlət orqanını təmsil edən 15 nümayəndənin iştirakı ilə seminar keçirilib.

18 dövlət orqanı tərəfindən müsabiqəyə çıxarılan 59 vakant vəzifənin tutulması üçün 729 namizəd sənəd təqdim edib. Test mərhələsində iştirak edən 662 namizəddən 285-i müvafiq keçid balını toplayıb. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün 13 namizəd müraciət edib. Esse imtahanında iştirak edən 12 namizəddən 8-i keçid balını toplayıb. Müsahibə mərhələsində iştirak etmək üçün isə 259 namizəd qeydiyyatdan keçib. Həmçinin əvvəlki müsabiqələrdə qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 6 namizədin müraciəti nəzərə alınaraq onların müsahibə mərhələsində iştirakları təmin olunub. Müsahibə mərhələsinin nəticəsinə görə bu mərhələdə iştirak edən 207 namizəddən 49-u uğur qazanıb.

13-16 sentyabr tarixlərində dövlət musiqi təhsili müəssisələrinə müəllimlərin işə qəbulu üçün test imtahanları keçirilib. Elan olunmuş müsabiqə üzrə qeydiyyatdan keçmiş 313 namizəddən 302-si müsabiqəyə çıxarılmış 255 vakant vəzifədən 155-nin tutulması üçün biliklərini sınayıb və onlardan 235-i keçid balını toplayıb. 22 sentyabr tarixindən başlayaraq isə müsabiqənin müsahibə mərhələsinə start verilib. Müsahibənin keçirilməsi üçün Dövlət İmtahan Mərkəzindən 1, Mədəniyyət Nazirliyindən 1, muxtar respublikada fəaliyyət göstərən ali təhsilli müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Müsahibə mərhələsi oktyabrın 2-dək davam edəcək.

Sentyabrın 3-də Naxçıvan Muxtar Respublika Prokurorluğu və Hərbi Prokurorluğun 11 əməkdaşının iştirakı ilə attestasiya imtahanı keçirilib. Dövlət orqanlarında çalışan əməkdaşların peşəkarlığının yoxlanılması məqsədilə keçirilən imtahanda, ümumilikdə, 11 namizəd iştirak edib. Onlardan 8-i müvafiq keçid balını toplayıb.

Ötən ay Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğu sahəsində təşkil olunmuş hazırlıq kurslarında 20, müəllimlərin sertifikasiya imtahanları üçün hazırlıq kurslarında 329 nəfər olmaqla, ümumilikdə, 349 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

***Qəzet bütün zamanlarda kütlələr arasında ən sanballı təbliğat vasitəsi kimi təsdiqlənmiş, öz sözünü deməyi bacaran, təbliğatı vasitəsilə mənsub olduğu xalqın maarifləndirilməsində, savadsızlığın, avamlığın aradan qaldırılmasında xüsusi rol oynamış, insanlara müasir dünyagörüşü bəxş etmiş, dövrün ziyalılarının üz tutduqları ocağa çevrilmiş, onların milli tərəqqi naminə yazdıqlarının ümumi kütləyə çatdırılmasında yeganə vasitə olmuşdur. Şübhəsiz ki, Azərbaycan milli mətbuatının inkişaf tarixində Naxçıvan mətbuatının özünəməxsus yeri və rolu var. Naxçıvanda ilk qəzet, bir əsr əvvəl, 1921-ci ilin payızında işıq üzü gördü. Bu qəzet son yüz ildə mövcud olmuş hər bir ictimai quruluşda Naxçıvanın salnaməsini yaradan "Şərq qapısı"dır.***

***"Şərq qapısı" – 100***

# "Şərq qapısı" qəzeti və Naxçıvan mətbuat məktəbi




XX əsrin 20-30-cu illərində Naxçıvanın siyasi həyatı gərgin keçirdi. Ziddiyyətlərlə dolu olan həmin illərdə qəzet çıxarmağın olduqca çətin tərəfləri var idi. Ölkədə kollektivləşmə siyasətinin həyata keçirilməsi başlıca məsələlərdən birinə çevrildiyindən mətbuatın üzərinə xüsusi missiya düşürdü. O zamana qədər muxtar respublikada dərc olunan yeganə mətbuat orqanı "Şərq qapısı" qəzeti idi. Həmin illərdə qəzetlə əməkdaşlıq etmək olduqca ağır və məsuliyyətli bir iş idi. Bu dövrdə qəzetlə əməkdaşlıq edən fəhlə, kəndli müxbirlər, eyni zamanda Məhəmməd Rəsizadə, Tofiq Fikrət, Fərəməz Mahmudbəyov, Əli Həsənzadə kimi dövrünün tanınmış ziyalıları da var idi.

30-cu illərin əvvəllərindən "Şərq qapısı" qəzeti öz fəaliyyətini daha da genişləndirir. Qüdrətli qələm sahibi Əli Vəliyevin redaktorluğu qəzetə böyük şöhrət gətirir. Həmin dövrdə rayonlarda da yerli mətbuatın təməli qoyulur, Şərur, Şahbuz, Ordubad rayonlarında qəzetlər nəşrə başlayır. Məhz bu dövr Naxçıvan mətbuat məktəbinin ideya-siyasi və mədəni səviyyəsinin yüksəldilməsinə mühüm təsir göstərir. "Şərq qapısı" qəzetinə məxsus müsbət ənənələrin formalaşmasında da bu dövr əhəmiyyətli rol oynayır və Naxçıvan mətbuatı öz məktəbini yaratmağa müvəffəq olur. 30-cu illərdə qəzetin səhifələrində Naxçıvan mətbuat məktəbinin ozamankı nümayəndələri – Mirzə İbrahimov, Abbas Gülməmmədov, Qurban Yusifzadə, Əyyub Abbasov, Məmmədəli Tarverdiyev, Lətif Hüseynzadə kimi qabaqcıl ziyalılar yeni həyatı təqdir və tərənnüm edən, nöqsanları cəsarətlə açıb göstərən yazılarla müntəzəm çıxış edirlər.

Kütləvi informasiyanın elə bir inkişaf mərhələsi olmayıb ki, özündən əvvəlki formasiyanın texnologiyasından, məktəbindən istifadə etməmiş olsun. Xüsusilə bir regionda ilk yaranan mətbuat orqanı özündən sonra fəaliyyətə başlayanlar üçün bir mayak, bir məktəb rolunu oynayır. Bu mənada, məhz "Şərq qapısı" məktəbinin təsiri ilə yetişən Naxçıvan Muxtar Respublikasının rayon qəzetlərində fəaliyyət göstərən jurnalist-müxbirlər jurnalistika sənətkarlığı baxımından maraqlı yazılar işləyib ortaya qoya biliblər. Təbii ki, Naxçıvanda yaradılan yeni mətbuat orqanlarının hər biri Azərbaycan milli mətbuatının ənənələrini davam etdirməklə yanaşı, həm də mətbuata yeniliklər gətirdilər. Müxtəlif vaxtlarda yaradılmış muxtar respublikanın rayon qəzetləri özündən əvvəlkinin ənənəsini mənimsəməklə yanaşı, Naxçıvan mətbuat məktəbini yeni ənənələrlə zənginləşdirdilər.

İkinci Dünya müharibəsi dövründə və müharibənin qalibiyyətlə başa çatmasından sonra da sovet hökuməti mətbuatın səfərbəredici gücündən ideoloji təbliğat vasitəsi kimi istifadə etməyə çalışırdı. Bu mənada, 1940-cı illərdə Naxçıvan mətbuat məktəbinin fəaliyyətində böyük canlanma duyulur. Bu dövrdə sonradan həmin məktəbin görkəmli yetirmələrinə çevriləcək İslam Səfərli, Seyid Səbri, Hüseyn Razi, Müzəffər Nəsirli, Hüseyn İbrahimov, Abbas Rəcəbli, Hüseyn Əzim, Əhməd Mahmud, Rəşid Qazıbəyov kimi qələm sahiblərinin mətbuat səhifələrində imzalarına tez-tez rast gəlinir.

"Yeni Ordubad" qəzetinin 23 noyabr 1966-cı il tarixli sayında oxuyuruq: "Müxbir gözüaçıq, hadisə və faktlara diqqətlə yanaşmağı bacaran olmalıdır". Məhz "Şərq qapısı" qəzetinin təsiri ilə formalaşan rayon qəzetləri də bu amala xidmət edirdilər. "Yeni Ordubad" qəzetinin yubileyində "Şərq qapısı" qəzetinin baş redaktoru Rəşid Qazıbəyovun, vaxtilə qəzetin məsul katibi işləmiş, həmin dövrdə isə "Şərq qapısı" qəzetinin xüsusi müxbiri olan Cəmşid Tağızadənin təbriklərinin dərc olunması rayon qəzetlərinin "Şərq qapısı" məktəbindən faydalanmasını, onun təsiri ilə inkişaf etmələrini, eyni zamanda rayon qəzetlərinin "Şərq qapısı" üçün bir kadr bazası olduğunu bir daha sübut edir.

Ötən əsrin 70-ci illərində "Şərq qapısı" qəzetində tez-tez xalqımızın dil, ədəbiyyat, mədəniyyət və tarixinə həsr olunmuş, Azərbaycançılıq ideologiyasına xidmət edən çoxlu yazıların dərc olunması rayon qəzetlərinin müəllifləri üçün də ilham qaynağına çevrilmişdi. Rayon qəzetlərində bu istiqamətdə fəaliyyət genişlənmiş və qeyd edilən mövzularda xeyli materiallar nəşr olunmuşdur. "Ordubadın bəzi mikrotoponimləri haqqında", "Ordubadın qədim yer adları", "Azərbaycan dili dövlət idarələrində", "Şədərəyin Eneolit yaşayış yeri", "Kolanı abidələri tarixi mənbələrdir", "Şahbuz rayonunun alban abidələri", "Xalq yaradıcılığı", "El sənətkarlarımız. Əməyin tərənnümü" və qeyd etmədiyimiz yüzlərlə digər maraqlı məqalələr, araşdırmalar, oçerklər yurdumuzun müxtəlif bölgələrinin tarixini özündə əks etdirirdi.

Xüsusilə ana dilimizə olan münasibət muxtar respublikanın mətbuat məktəbində özünü aydın şəkildə göstərir. Tarix elmləri namizədi Əli Əliyevin "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzetinin 16 mart 1989-cu il sayında dərc edilmiş "Azərbaycan dili dövlət idarələrində" adlı yazısının "Qabaqcıl" qəzetinin (Şahbuz rayonu) 25 mart 1989-cu il sayında verilməsi, rayon qəzetinin bu sahədə atdığı cəsarətli bir addım kimi dəyərləndirilə bilər. "Qabaqcıl" qəzetində oxuculara vaxtilə ermənilər tərəfindən adları dəyişdirilmiş Azərbaycan kəndlərinin adları da təqdim olunur. Hansı tarixdə neçə kəndin adının dəyişdirilməsi dəqiqliklə – əvvəlki və dəyişdirilmiş adları ilə oxuculara çatdırılır. Öyrənirik ki, 1938-ci il 4 yanvar tarixində 6, 1939-cu il 4 may tarixində 3, 1940-cı il 2 mart tarixində 4, 1940-cı il 1 iyul tarixində 8 kəndin adı erməni vandalları tərəfindən dəyişdirilib.

Bu tarixi faktların dərc olunması "Şərq qapısı" məktəbindən faydalanan rayon qəzetlərində milliliyə qayıdış kimi dəyərləndirilməlidir. Sanki "Əkinçi" qəzetinin 9 avqust 1876-cı il tarixli (№15) sayındakı "Ey müsəlmanlar, vaxt keçməmiş fikrinizi birləşməyə verin ki, dağınıq millət çox tez puç olar" ifadəsi 100 ildən sonra – 1980-ci illərin sonlarında muxtar respublikanın mətbuat məktəbinin əsas devizinə çevrilmişdi. Heç şübhəsiz ki, 1980-ci illərin ortalarından məmləkətimizdə milli şüurun oyanmasında, özünüdərk prosesinin formalaşmasında, vətənpərvərlik ruhunun yüksəlməsində, həmrəyliyin yaranmasında "Şərq qapısı" qəzetinin və onun yaratdığı Naxçıvan mətbuat məktəbinin formalaşdıran rayon qəzetlərində dərc olunan yazıların da əhəmiyyəti danılmazdır.

Bu cəhətdən "Zəfər" qəzeti (Culfa rayonu) də, xüsusilə fərqlənir. Qəzetin 11 aprel 1993-cü il tarixli sayındakı "Təşəbbüsə qoşulun" adlı müraciətdə rayon Qadınlar Cəmiyyətinin sədri N. Qasımovanın *"Mən hər ay əməkhaqqımın 20 faizini rayonumuzun müdafiəsi üçün köçürürəm. Və təklif edirəm ki, bu təşəbbüsə bütün cəmiyyətlər, idarə və təşkilatlar, imkanı olanlar qoşulsun"*, eyni zamanda Culfa şəhər orta məktəbin direktoru Ş.Şükürovun rayonun bütün gənclərinə və döyüş qabiliyyətli əhalisinə müraciəti dərc olunub. Müraciətdə deyilir: *"Əziz həmvətənlərim! Əgər damarlarınızda türk qanı axırsa, qeyrət və namusumuzun sınağa çəkildiyi, torpaqlarımızın düşmən tapdağına çevrildiyi bu məqamda səsimə səs verin".*

"Qarabağ, biz səninləyik! Əziz həmvətənlərimiz! Xalqı bu çətin imtahandan yalnız onun pozulmaz birliyi və möhkəm iradəsi çıxara bilər", "Didərginlər" kimi yazılar xalqı həmrəyliyə, birliyə çağırırdı. Ən başlıcası isə XX əsrin səksəninci illərinin sonları və 90-cı illərin əvvəlində "Şərq qapısı"nın yaratdığı mətbuat məktəbi ölkəmizdə müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparırdı. Çünki mətbuat yalnız bir təbliğat vasitəsi deyil, eyni zamanda cəsur bir döyüşçü, igid bir sərkərdə, qəhrəman bir vətəndaş mövqeyi də nümayiş etdirirdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından, muxtar respublikaya rəhbərlik etməyə başlamasından sonra Naxçıvan mətbuat məktəbi də yeni dövrə qədəm qoydu. Ulu öndərin Naxçıvanda tarixi xilaskarlıq missiyasını həyata keçirdiyi zamanda muxtar respublikada milli şüurun oyanmasında və özünüdərk prosesinin formalaşmasında yerli mətbuatda vətənpərvərlik, milli dəyərlər, özünəqayıdış, azadlıq, müstəqillik ruhunda dərc olunan yazılar mühüm rol oynayıb. Məhz bu dövr "Şərq qapısı" və Naxçıvan mətbuat məktəbinin daha da inkişaf etməsi, siyasi cəhətdən yetkinləşməsi və formalaşması üçün xüsusi əhəmiyyət daşıyır.

Böyük jurnalistika məktəbləri yaratmış dahi sənətkarların "yaradıcılıq himayəsi" altında yetişmiş qələm sahiblərinin bu qəzetlərdə uzun müddət fəaliyyət göstərməməsi qəzetlərin sənətkarlıq baxımından zəif inkişaf etməsi fikrini yarada bilər. Amma onu da danmaq olmaz ki, region mətbuatında da yaradıcılıq və sənətkarlıq baxımından görkəmli jurnalistlər yetişib və onların davamçıları da olub. "Şərq qapısı" uzun illərboyu muxtar respublikada mətbuat məktəbini yaradan, milli jurnalist kadrları yetişdirən, yönləndirən yaradıcılıq məktəbi olub. Onun ideya-siyasi və peşəkarlıq səviyyəsi rayon qəzetləri üçün örnək kimi qəbul olunub. Məhz bu məktəbdə yetişən Nemət Əhmədov, Qədim Qədimov, Qasım Tağıyev, Məhərrəm Xudiyev, Mikayıl Əliyev, Abbas Qasımov, İsmayıl İsmayılzadə, Hüseyn İbrahimov, Nağı Babayev, Hüseyn Ağrılı, Hüseynqulu Əzimov, Qərib Rəfiyev, Cəmşid Tağızadə, Rafiq Babayev, Əkbər Əliyev, Gülməmməd Allahverdiyev, Hüseyn Əzimov, Məmməd Məmmədov, Fərəc Fərəcov, Güllü Məmmədova, Xeyrulla Abbasov, Çərkəz Məhərrəmov, Qaşdar Əliyev, Rəzzak Babayev, Saleh Hüseynov, Cəfər Əliyev, Cəfərqulu Paşayev, Səxavət Kəngərli, Elman Məmmədov, Muxtar Qasımzadə, Afət Sadıqoğlu, Sarvan İbrahimov, Muxtar Məmmədov, Hüseyn Şəkərliyev, Abbas Seyid, Mehriban Sultan, Şəhla Nəbiyeva, Mətanət Məmmədova, Hafizə Əliyeva, Sahil Tahirli, Rauf Kəngərli, Sara Əzimova, Ruhiyyə Rəsulova, Qafar Qərib, Elxan Yurdoğlu, Rahil Tahirli və adlarını çəkə bilmədiyimiz yüzlərlə başqaları "Şərq qapısı" məktəbində formalaşaraq muxtar respublika qəzetlərinin və digər mətbuat orqanlarının jurnalistika sənətkarlığı baxımından inkişaf etdirilməsi, yeni yaradıcılıq meyillərinin ortaya qoyulması istiqamətində böyük rol oynayıblar. Bu gün siyahısını ixtisarla təqdim etdiyimiz bu insanların vaxtilə əsasını qoyduqları yeni meyillər onlardan sonrakı nəsillər tərəfindən böyük uğur və müvəffəqiyyətlə davam etdirilmiş, daha da irəli aparılmış və "Şərq qapısı"nın təsiri altında inkişaf edən jurnalistika məktəbinin, yeni mətbuat məktəbinin ərsəyə gəlməsində böyük rol oynamışdır.

Jurnalistlərin sənətkarlıqla yaratdıqları mətbuat nümunələrinin bir çoxu bu gün üçün də öz əhəmiyyətini və dəyərliliyini itirməyib. "Şərq qapısı" qəzeti və Naxçıvan mətbuat məktəbinin ana dilimizə, milli-mənəvi dəyərlərimizə qayğıkeş münasibəti, ənənə və novatorluqda normativliyi əsas götürməsi region mətbuatını mükəmməl bir yaradıcılıq məktəbinə çevirmişdir. Region mətbuatının öz fəaliyyətində ənənə və novatorluğu vəhdətdə inkişaf etdirməsi, ənənələrə hörmət, yeniliyə ehtiram məsələsini öz fəaliyyətinin əsas qayəsinə çevirməsi mətbuatın milli inkişaf xüsusiyyətlərini daha da ön plana çəkir, onu məktəb səviyyəsinə qaldırır.

*Azərbaycan mətbuatının zəngin ənənələrini yaşadan və inkişaf etdirən, insanları maarif işığı ilə nurlandıran, Naxçıvan Muxtar Respublikasının salnaməsini öz səhifələrində tarixə çevirən "Şərq qapısı" və onun təsiri ilə formalaşan Naxçıvan mətbuat məktəbi tarixdə böyük xidmətləri ilə seçilməkdədir. Heç şübhə yoxdur ki, gələcəkdə Naxçıvan Muxtar Respublikasının tarixi mənzərəsi, sosial-iqtisadi həyatı ilə maraqlanmaq istəyənlər də, ilk növbədə, arxivlərdə, kitabxanalarda yerli həyatın salnaməsi olan qəzetlərin səhifələrini vərəqləməli olacaqlar. Əlbəttə, mətbuat dövrün, zamanın salnaməsi və güzgüsüdür. Ali Məclis Sədrinin sözləri ilə desək:* ***"Mətbuat bu günümüzlə gələcək arasında həm də mənəvi bir körpüdür, bağlılıqdır".***

**Məmməd BABAYEV**

***Məqalə "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Muxtar respublikada ailə, qadın və uşaq hüquqları qorunur

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması sentyabr ayında da diqqətdə saxlanılmış, bir sıra görüş, seminar, təlim və monitorinqlər keçirilmişdir.***

Ötən ay Şərur rayonunun Kərimbəyli kəndində yaşayan, xüsusi qayğıya ehtiyacı olan çoxuşaqlı Babayevlər ailəsinə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış, ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir.

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında 5 qadının 8 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikasında tək və ailə başçısı olan qadınların peşəyönümlü fəaliyyətə yönləndirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Belə ki, şəhər və rayon icra hakimiyyətlərindən aid kateqoriyadan olan qadınlar haqqında məlumatlar alınmış, komitədə yaradılmış bazaya əlavə edilmiş, təhlili aparılmışdır. Bununla bağlı Kəngərli rayonu üzrə 126 qadınla əlaqə saxlanılmış, onlardan 17-nin öz təsərrüfatını qurması və 6-nın peşə fəaliyyətinə yönləndirilməsi ilə bağlı müvafiq iş aparılır. Əlavə olaraq sərmayə kapitalı verilmiş qadınlarla bağlı kataloqun hazırlanması üçün lazımi tədbirlər görülür. "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsində sərmayə kapitalı verilmiş qadınlardan 5-nin iş yerində və təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmişdir. Monitorinq zamanı layihə iştirakçılarının sərmayə kapitalını bağlanmış müqavilələrə uyğun istifadə etmələrinə nəzarət olunması və ayrılmış sərmayə kapitalından düzgün istifadə etmələri yoxlanılmışdır.

Hesabat ayında Sədərək rayonunda yaşayan sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan ailələrin üzvü olan qadınlar üçün xalçaçılıq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilmişdir. Təlimdə 6 xüsusi qayğıya ehtiyacı olan ailədən 10 sağlamlıq imkanı məhdud və 1 nəfər Sədərək Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin müvafiq dərnək rəhbəri olan qadınlar olmaqla, ümumilikdə, 17 nəfər iştirak etmişdir. Beynəlxalq Ahıllar Günü ilə əlaqədar Şərur rayonunun Püsyan kəndində yaşayan muxtar respublikanın uzunömürlü sakini, ahıl Laçın Tağıyevanın yaşadığı ünvanda görüş keçirilmiş, ona hədiyyələr təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 289 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar sentyabr ayı ərzində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud 45 uşağın təhsil aldığı 9 müəssisədə, eləcə də sağlamlıq imkanları məhdud 78 uşağın ümumtəhsil məktəblərinə, məktəbəqədər və məktəbdənkənar müəssisələrə cəlbi ilə bağlı uşaqların evlərində monitorinq keçirilmişdir. Monitorinq çərçivəsində 19 nəfər ümumtəhsil məktəblərinin I siniflərinə, 15 nəfər məktəbəqədər hazırlıq qrupuna, 6 nəfər uşaq bağçasına, 1 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə cəlb edilmişdir. Uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək məqsədilə 2 uşaq müəssisəsində və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın evində monitorinq keçirilmiş, uşaq hüquqlarının pozulması halı aşkarlanmamışdır.

Şərur rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı müvafiq müəssisələrin rəhbər şəxslərinin iştirakı ilə maarifləndirici seminar keçirilmiş, müvafiq sahə ilə əlaqədar hazırlanmış 50 broşür seminar iştirakçılarına paylanılmışdır.

Hesabat dövründə 15 sentyabr – Bilik Günü ilə əlaqədar muxtar respublikada yaşayan xüsusi qayğıya ehtiyacı olan, çoxuşaqlı, təkvalideynli, sağlamlıq imkanları məhdud, şəhid, qazi övladı, valideyn himayəsindən məhrum olmuş uşaq olmaqla, ümumilikdə, 116 uşağa məktəbli forması və dərs ləvazimatları verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Bir vüsal nəğməsi, qürur rəmzidir şəhid məzarı



***Hər dəfə yolum Sədərək – Naxçıvan magistralının Kəngərli rayonunun Xok kəndi hissəsindən keçəndə yol kənarındakı məzarlıqda ayaq saxlayıram. Burada uyuyan, vüsalı Vətən olan yeddi oğulun son mənzilində – məzarı başında dayanıram. Onlara demək istədiyim sözləri misra-misra vərəqə köçürürəm. Məhz köçürürəm, nöqtəsinə, vergülünə toxunmadan, bir sözünü dəyişmədən əzbər bildiyim bir şeir kimi...***

Neçə sevgiləri, neçə toyları, neçə sevincləri yarımçıq qoyur müharibələr. Ancaq müharibələrin sonunda qələbə olanda insanları o qədər yandırmır. Çünki bilirlər ki, o qanlar, o canlar hədər yerə qurban getməyib. İllərdir, həsrətlə yaşayırdıq torpaq acısı ilə. Qəlbimizdəki yara isə sağalmırdı, elə hey qanayırdı. Ta ki o vaxta – igid Azərbaycan əsgərinin torpaqlarımızın azadlığı uğrunda əks-hücuma keçdiyi günə kimi. 27 sentyabr günü elə bir Günəş doğuldu ki, Azərbaycan səmasında onun parlaq şəfəqləri bu xalqın gələcəyinə nur saldı. Elə bir nur ki min il bundan sonra da işıq salacaq yolumuza. Sizin kimi oğulların yurdumuzun azadlığı uğrunda şəhidlik zirvəsinə ucalmağı elimizi, obamızı nura qərq etdi. Sizin sinənizə dəyən düşmən gülləsinin yerindən qan axdıqca üçrəngli bayrağımızın al-qırmızı rəngi şəfəq saçdı. "Şəhid qanı ilə sulanan torpaq basılmaz", – dedi. Bükülüb gəldiyiniz, uğrunda canınızı verdiyiniz müqəddəs bayrağımız indi sizə qürurla keşik çəkir. Sizin kimi oğulların sayəsində artıq bir ildir ki, Günəşi Şuşada salamlayır, Kəlbəcərdə yola salırıq. 30 ildir, yurdundan ayrı düşənlər yurd-yuvasına qayıdır. Şuşamız çiçək açıb, Ağdam ağ günlərinə qayıdıb, Füzuli Hava Limanına "Qarabağ" adlı təyyarə enir. Vaqifin ruhu şad olub, xarıbülbül öz doğmaları üçün açır. İllərdir, düşmən tapdağında nəfəsi kəsilən ulu torpaq dərindən bir ah çəkib rahat nəfəs alır. Sizin dünyaya əbədi yumulan gözləriniz Qarabağın gözlərinə nur oldu, son nəfəsiniz onun nəfəsi oldu. İndi bu torpaq gülür, dirçəlir. Yurduna ayaq basan hər insan ruhunuza dualar oxuyur. Bütün Azərbaycan xalqı sizə minnətdardır, Vətənimizin igid oğulları. Torpağı öz yarından, anasından, canından çox sevib "Vətən sağ olsun!" – deyən oğullar. Dünyaya gəldiyi torpaqdan yüz kilometrlərlə uzaqda nər kimi döyüşüb başımızı uca edənlər. Kəngərlililərin, naxçıvanlıların tarixboyu igid olduqlarını bir daha sübuta yetirən başımızın ucalığı olan oğullar. Vətəni, yurdu əmanəti bilib uğruna can verənlər – Təbriz, Ülvi, Kəmaləddin, Aslan, Basid, Elmar, Niyaməddin – bir-birindən igid, bir-birindən qoçaq yeddi oğul. Biri 22, digəri 24, o biri isə 33 yaşını cənnətdə qarşılayıb. Vətən müharibəsində Şuşa, Cəbrayıl, Zəngilan, Qubadlı azadlığa qovuşsun deyə, canından keçən oğulların, sadəcə, yeddisi. Üç min oğuldan yeddisi – eyni kəndin igidi. Sözlər də yetərsiz qalır, cümlələr aciz olur sizin igidliyinizi vəsf etməyə. Bütün sevgisini torpağa verən, özləri bu torpaqda əbədi iz olanlar. Bir kənddə böyüyüb eyni amal uğruna şəhidlik zirvəsinə ucalanlar. Yeddi ananın, bacının nisgili, qüruru, qələbəni bizə gətirən oğullar. Yeddi evin çırağı, yeddi gözəlin adaxlısı, yeddi bacının qardaşı və Vətənin oğul dediyi 7 igid. Qələbəni bizə gətirən igidlər, sizin kimi oğulların əllərində bayrağımız işğaldan azad edilmiş yurd yerlərinə sancıldıqca bu müqəddəs torpaq qürurlandı, fəxr duydu. Bağrı yandı hər dəfə qoynuna məzar qazıldıqca, amma sınmadı, çünki bilirdi ki, bu məzarlar əbədiyyət üçündür. Tanrının süfrəsinin qonaqları köçdükcə yurdumun bağrına, ürəyi qan ağlasa da, gözləri güldü qəhrəman yurdun. Qəhrəmanlar yetirən bir torpaq bu günə kimi şəhid qanı ilə sulanmışdı, müqəddəsləşmişdi. Tarixin keşməkeşli yollarında xalqımızın igidliyi bu məkanın həm Vətən torpaqlarının ilk, həm də son sərhədi olduğunu, müqəddəsliyini sübuta yetirdi. Vətən müharibəsində igidlik göstərən oğullar da onların davamçıları oldular.

Artıq bir ildir ki, bu kənddə yeddi ananın gözləri yol çəkir. Bu ağlı, qaralı yol uzana-uzana uzaqlara gedir. Çoxlarının həyat yoldaşı, oğlu, qardaşı, nişanlısı bu yolla getdi. Kimisi bayrağa büküldü gəldi, kimisi bayraq çiynində. Yollara dikilən gözlərə əbədi həsrət çöküb – əbədi zəfərlə ölümsüzlük qazananların həsrəti. Sizin kimi oğulların məzarı and yerimizə dönüb. İndi gənclərimiz tariximizi sizdən öyrənir. Sizin məzar daşlarınıza yazılan Şuşa, Cəbrayıl, Qubadlı, Zəngilan kəlmələrindən. Böyük qayıdışın qanla yazılan kəlmələrindən. Tarixin axışını dəyişən oğullardan.

And yerimiz olan məzarlar başından ayrılanda oğullarını ziyarətə gələn əli xonçalı anaları görəndə Sənubər xanım Kəngərlinin bu misralarını xatırlayıram:

*Qəlbindəki təlatüm bilinirdi üzündən,*
*Ana açdı sandığı, sellər axdı gözündən.*
*O, bir nişan üzüyü, bir ağ örpək çıxardı,*
*Vaxtilə bu şeylərin gənc bir sahibi vardı.*
*Vətənin dar günündə o sarıldı silaha,*
*Odlu vuruşmalardan qayıtmadı bir daha.*
*Ananın bu halına mən ürəkdən yanıram,*
*Bir anlığa özümü mən də ana sanıram.*
*Qəlbimdən bir səs gəlir:*
*Müharibə olmasın!*
*Qoy nişan üzükləri sandıqlarda qalmasın.*

Siz son şəhidlərimiz olun, analar bir də ağlamasın, qız-gəlinlərimizin gözləri yollarda qalmasın, balalarımız atasız olmasın, toy xonçaları məzarlara gəlməsin. Əbədilik zəfərimiz buna ən böyük zəmanətdir.

**Ramiyyə ƏKBƏROVA**



*Şəhid Emin Sadiqov*
*rəssam: Nuriyyə Seyidova*



*Şəhid Fərmin Əliyev*
*rəssam: Səyyad Bayramov*



*Şəhid Qurban İbrahimov*
*rəssam: Nəsurullah Musayev*

## Şəhid Orxan Kərimlinin əziz xatirəsi əbədiləşdirilib



Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının təşəbbüsü ilə ali təhsil ocağının Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi kimi Vətən müharibəsinə yollanan, qəhrəmanlıqla şəhid olmuş Orxan Kərimlinin əziz xatirəsini əbədiləşdirmək məqsədilə ağacəkmə aksiyası təşkil edilib. Beynəlxalq münasibətlər və hüquq fakültəsinin ərazisində təşkil edilən ağacəkmədə fakültənin müəllim və tələbələri iştirak ediblər.

Beynəlxalq münasibətlər fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov, kafedranın baş müəllimi Arzu Abdullayev, universitet Tələbə-Gənclər Təşkilatının sədri, Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımov çıxışlarında zəfər yolumuzun birillik tarixinə nəzər salıblar. Diqqətə çatdırılıb ki, əsgərlərimiz Ali Baş Komandanın siyasi səriştəsi və ordumuzun döyüş əzmi nəticəsində şanlı tarix yazdılar. Çıxış edənlər şəhidin keçdiyi döyüş yolu haqqında məlumat verərək gənclərin belə təşəbbüsünü alqışlayıblar.



Qeyd edək ki, Orxan Akif oğlu Kərimli 2001-ci il oktyabrın 6-da Göyçay şəhərində anadan olub. Naxçıvan Dövlət Universitetində ali təhsil alan Orxan 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib, oktyabrın 9-da qəhrəmancasına şəhid olan Orxan Kərimli Göyçay şəhərinin Şəhidlər xiyabanında dəfn olunub.

Şəhidimiz ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3992 | 295,2 | 295,2 | 100,0 |
| 2. | Şərur rayonu | 1796 | 128,0 | 128,0 | 100,0 |
| 3. | Babək rayonu | 1751 | 127,3 | 127,3 | 100,0 |
| 4. | Ordubad rayonu | 1030 | 74,2 | 74,2 | 100,0 |
| 5. | Culfa rayonu | 891 | 70,7 | 70,7 | 100,0 |
| 6. | Kəngərli rayonu | 838 | 60,6 | 60,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 388 | 28,0 | 28,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 352 | 25,3 | 25,3 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19607 | 1764,6 | 1759,8 | 99,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30645** | **2573,9** | **2569,1** | **99,8** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla verilən 30 milyon 645 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 573 min 900 manat olmuş, cəmi 2 milyon 569 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,8 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin sentyabr ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1007203 | 152267 | 152288 | 100,0 |
| 2. | Şərur rayonu | 789791 | 120375 | 120388 | 100,0 |
| 3. | Ordubad rayonu | 431003 | 65477 | 65484 | 100,0 |
| 4. | Şahbuz rayonu | 275090 | 42117 | 42121 | 100,0 |
| 5. | Culfa rayonu | 370058 | 58644 | 58647 | 100,0 |
| 6. | Babək rayonu | 1000710 | 131379 | 131383 | 100,0 |
| 7. | Kəngərli rayonu | 267655 | 44996 | 44996 | 100,0 |
| 8. | Sədərək rayonu | 100381 | 15773 | 15773 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8041522 | 1170350 | 1186014 | 101,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **12283413** | **1801378** | **1817094** | **100,9** |

### *İtmişdir*

Şərur rayonunun Arbatan kəndində yaşamış Sadıqov Vidadi Həsən oğlunun adına olan JN-003$^{B}$ inventar nömrəli, 10205028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Ələkli kəndində yaşamış Süleymanov Abuzər Süleyman oğlunun adına verilmiş JN-252 inventar nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kərimbəyli kənd sakini Abdullayeva Pəri Fərman qızının adına olan 2$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 831